بسم الله الرحمن الرحيم

Bismillahir-rəhmanir-rəhim

# İMAM RZA (Ə) ƏHLİ SÜNNƏ RƏVAYƏTLƏRİNDƏ

www.ketab.ir

**Müəllif: Məhəmməd Möhsin Təbəsi**

**Tərcümə edən: Arzu Eyvazov**

Təbəsi, Məhəmməd Möhsin -1360 طبسی، محمد محسن،

امام رضا (ع) به روایت اهل سنت : زندگانی ، شخصیت . ترکی آذربایجانی

Imam Rza (ə) əhli sünnə rəvayətlərində: həyatı və şəxsiyyəti. Azəri Turkcəsi

Məhəmməd Möhsin Təbəsi, Tərcümə edən: Eyvazov Arzu, Məşhəd şəhəri: İslami tədqiqat bölümü, 1391 -2012

ISBN 978-964-971-577-3 . p 198

علی بن موسی(ع) امام هشتم ۱۵۳؟ - ۲۰۳ ق. – احادیث اهل سنت

Əli bin Musa (ə) səkkizinci İmam, q 203-- əhli sünnət hədisi

بنیاد پژوهشهای اسلامی Islami tədqiqat bölümü عیواض اف، آرزو Eyvazov Arzu

80451391 الف 2 ط \BP47\2 297/957

کتابخانه ملی ایران 3011123

Imam Rza (ə) əhli sünnə rəvayətində

Müəllif: Məhəmməd Möhsin Təbəsi

Tərcümə edən: Eyvazov Arzu

Redaktor: Babayev Elvar

Ekinci çap: 2013

Tiraj: 5000 nüsxə

Qiymət: 59000 riyal

Çap: Astan Qudse Rəzəvinin intişarəti

www. Islamic-rf:ir info@islamic-rf.ir

Çap huququ qorunulur

www.ketab.ir

(İmamın həyatı, şəxsiyyəti, buyurduqları, İmaməti, vəliəhdliyi, kəraməti və ziyarəti)

Təhqiqatçı alim Hacı Şeyx Nəcməddin Təbəsidən müqəddimə

Dəyərli alim və güclü təhqiqatçı Şeyx Məhəmməd Möhsin Təbəsinin tərtib etdiyi (İmam Rza (ə) əhli sünnə rəvayətlərində) kitabını böyük həvəs və maraqla oxudum. Bu kitab əksəriyyətin etiraf etdiyi kimi həzrət Muhəmməd (s) xanədanının alimi və Allah Rəsulunun canparəsi olub.

Onun pak məzarının ziyarəti yetmiş həcc ziyarətinin savabına malikdir. Onun məzarı kənarında bir gecə qalmaq səma əhlinin ziyarətinə bərabərdir. Onun ziyarətçisi qiyamət günü ən yüksək məqamda və pak imamların yanında olacaq.[1]

Onun uca şəxsiyyəti qarşısında hətta əhli sünnənin müxtəlif firqə və məzhəblərdən olan böyük alimləri təzim edib ehtiram göstərmişlər. Onlar İmamın ziyarətini sünnə və fəzilət saymışlar. Belə ki, İbn Xəzimeyi Şafeyi haqqında deyilib:

"Onun İmamın (ə) türbətinə hörməti, qarşısında təvazükarlığı, məzarına yaxınlaşanda göz yaşı və naləsindən heyrətə gəldik və hamılıqla dedik: Əgər bu İmam bütün bunları sünnə və fəzilət saymasaydı belə etməzdi."[2]

Şiə və sünnülər nəzərində onun şəxsiyyətinin böyüklüyü, ona təvəssüllə istəklərin qəbul olması o qədər aydın və sınaqdan keçmiş bir həqiqətdir ki, Şafeilərin tanınmış fəqihlərindən olan Məhəmməd ibn Əli ibn Səhl deyir:

---

1. "Uyuni əxbar ər-Riza", 2, 263.

2 "Fəraid əs-səmtəyn fi fəzaili əl-Mürtəza...", 2, 198

"Din və dünya işlərində hansı çətinliklə qarşılaşdımsa onun aradan qalxması üçün İmam Rzanın (ə) pak məzarının ziyarətinə getdim. Dua oxudum və istəyim yerinə yetdi, çətinliyim aradan getdi. Bu məsələ mənim üçün adiləşdi və təcrübədə sübuta yetdi. Buna görə də hansı çətinliklə üzləşdimsə onun pak qəbrinə təvəssül etdim."[1]

Tarix hələ də İbn Hibban Bosti Şafeinin bu cümləsini yaddan çıxarmayıb:

"Dəfələrlə İmam Rzanın (ə) qəbrinin ziyarətində olmuşam. Tusda qaldığım dövrdə nə vaxt çətinliklə üzləşirdimsə, İmamın (ə) qəbrinin ziyarətinə gedirdim. Allahın salamı olsun cəddinə və ona. Ziyarətə gedəndə Allahdan öz çətinliyimin həll olmasını istəyərdim. Allah çətinliyimi aradan aparardı. Bu məsələni dəfələrlə sınaqdan keçirmişəm".[2]

Bu həqiqətlər və əhli sünnə böyüklərinin etirafları vəhabilərin pak İmamlara, salehlərə və möminlərə təvəssül və təbərrüklə bağlı düşüncələrinin yanlış olduğunu göstərir. Onlar bu həqiqətləri İbn Teymiyyədən üç yüz-dörd yüz il, fitnəkar vəhabilərdən səkkiz yüz ilədək öncə etiraf etmişlər.

Bu kitabda əhli sünnə və digər məzhəblərin onlarla əsas mənbələrindən istifadə etməklə geniş araşdırma aparılmışdır. Kitabda İmam Rzaya (ə) münasibətdə həqiqətə yaxın nəzəriyyələr nəzərdən keçirilmişdir. İstənilən bir insaflı şəxs bu kitabı oxumaqla belə nəzərə gəlir ki, özünü müsəlmanlar və əhli sünnə arasında söz sahibi sayan sələfi cərəyanları əməvilərin və Peyğəmbər (s) düşmənlərinin yolunu davam etdirir. Peyğəmbər (s) və onun pak Əhli-beytinə (ə) münasibətdə bu yanaşma isə sünnə əhlinin əsl xəttinə uyğun deyil.

Bircə bu faktı bilmək bəs edər ki, Əbu Zurəti Razi Hənbəli və Məhəmməd ibn Əsləm Tusi iyirmi min nəfərdən artıq cəmiyyətlə

[1] Eyni mənbə, 2, 220
[2] "Əs-Siqat", 8, 426



www.ketab.ir

Nişaburda İmam Rzanı (ə) qarşılayır. Hakim Nişaburi Şafei deyir:

“Bir qurup ağlar halda, başqa bir qurup ahu-zarla, bir başqaları isə torpağa sürtünmüş vəziyyətdə İmamın miniyinin ayağını öpürdü.”[1]

Bu həqiqətləri gənc nəslə təkrarlamaq ishaq İslam məzhəbləri arasında yaxınlıq yaratmaq istiqamətində böyük xidmətdir. Həqiqətən də əziz müəllif bu yöndə müvəffəq olmuşdur. Ümid edirik ki, bu silsilə söhbətlər “Əhli-beyt (ə) İmamları əhli sünnə rəvayətlərində” başlığı altında toplanaraq oxucuların ixtiyarına veriləcək. Allah-təala onlara yardımını artırsın.

Nəcməddin Təbəsi, müqəddəs Qum.

www.ketab.ir

[1] “Əl-Fusul əl-muhimmə fi mərifəti Əimmə”, səh. 242

# Ön söz

İmam Rza (ə) Həzrət Peyğəmbərin (s) övladı, həqiqət sorağında olanların səkkizinci İmamıdır. O bir nurani həqiqətdir ki, şəxsiyyəti və biliyi təkcə şiə məktəbi yox, digər firqələr və sünni məzhəbini də əhatə etmişdir. Bu şəxsiyyət ətrafdakıları sitayiş və mədhə vadar etmişdir. Mühüm sünni kitablarını diqqətlə araşdırdıqda deyilənlərə şahid olmaq mümkündür. Belə bir nöqtəni qeyd etməliyik ki, həmin mətnlərdə Peyğəmbərin (s) bu övladının həqiqi məqamı öz əksini tapmamışdır. Amma onlardan hər biri xüsusi bir baxış və fərqli bəyanla Həzrət Rzanın (ə) şəxsiyyətinin əzəmətini etiraf etmişlər.

Bu arada əhli sünnə, xüsusilə onların alimlərinin İmam Rzanın (ə) nurani həqiqəti barəsində sözlərinə işarə etmək olar. Bu münasibətlər Həzrətin öz dövründən indiyədək davam etməkdədir. Aşkar və gizli, qərəzli mənfi yanaşmalara baxmayaraq bu dəyərli mirası toplamaq zəruridir və hazırkı kitabın ərsəyə gəlməsində həmin zərurət əsas olmuşdur.

Bu araşdırmanın zəruriliyi: Yaxın və uzaq nöqtələrdən, bütün firqələr və məzhəblərdən insanların İmam Rzanın (ə) hərəminə axışması; əhli sünnənin İmam Rzaya (ə) münasibətdə baxışının aydın olmaması; onların Həzrət (ə) haqqında pərakəndə fikirləri; vəhabilərin Əhli-beytin (ə) şəxsiyyətinə münasibətdə fitnəkarcasına təhrikləri; onların müqəddəs məkanların dağıdılması ilə bağlı fitnəkar fitvaları, o cümlədən İmam Rzanın (ə) hərəminə təxribatçı münasibət; konpleks bir araşdırmanın olmaması. Bu zərurəti yaradan dörd mühüm amili qeyd etdik.

Bu araşdırmanın məqsədi: Bu araşdırmanın zərurətinə əsasən üç məqsəd izlənilir: İmam Rzanın (ə) şəxsiyyətinə münasibətdə əhli sünnənin baxış və düşüncələrindən kompleks və real tanışlıq; Həzrət Peyğəmbərin (s) övladının müqəddəs vücudu əsasında şiə və sünni məzhəbləri arasında bir ürəkli və yaxınlaşma zəminəsi; təfriqəçi vəhabilərin kinli hərəkətlərinin

www.ketab.ir